# “İdman və incəsənət”







Azərbaycan Milli İncəsənət Muzeyində təşkil edilmiş bu sərginin ekspozisiyasına Xalq rəssamları Xalidə Səfərovanın “Velosiped yarı-
şı”, “Yaxtalar”, Ələkbər Rzaquliyevin “Güləş”, Toğrul Nərimanbəyovun
“Zavod stadionu”, rus rəssamları Aleksandr Denyekanın “Gənclik”,
Fyodr Antonovun “Stadion” əsərləri daxil edilib. Qeyd edək ki, tama-
şalarımızda müxtəlif zaman, məkan forma, üslub təəssüratları ya-
radan bu sərgi iyunun sonunadək davam etdi.

## “Avropa haqqında düşüncələr”







Azərbaycan rəssamlarının əsərlərindən ibarət bu sərginin ke-
çirilməsində məqsəd ölkəmizə gələcək qonaqları və yerli sakinləri
Azərbaycan Dövlət Rəsm Qalereyasının fondunda saxlanılan dəyərli
əsərlərlə tanış etməkdir.

Ekspozisiyada Mikayıl Abdullayev, Nadir Əbdürrəhmanov, Lətif
Feyzullayev, Əyyub Hüseynov, Nəcəfqulu İsmayılov, Davud Kazımov,
Nadir Qasımov, Ağa Mehdiyev və başqa rəssamların 70-dən çox əsəri
nümayiş olunur.

Sərgiyə baxarkən insan özünü Avropanın müxtəlif guşələrində
hiss edir. Bu əsərlər vasitəsilə hər bir ziyarətçi Azərbaycan rəssamla-
rının Avropa haqqında düşüncələrinin şahidi olur.

Ötən əsrdə Azərbaycan rəssamları dünyanın müxtəlif ölkələrinə,
o cümlədən Avropaya yaradıcılıq səfərləri edir, bunların nəticəsi ola-
raq Bakıda təşkil olunan hesabat sərgiləri əsl sənət bayramına çevri-
lirdi. Rəssamlarımız oradan böyük əsərlər üçün ilkin material rolunu
oynayan etüdlərlə dönür, zaman-zaman yaratdıqları əsərlərdə təəs-
süratlarını əks etdirməklə yanaşı, Azərbaycan rəssamının düşüncə
və xəyallarındakı Avropa ilə gerçək Avropanın ortaq müstəvisinə nail
olurdular və təqdim olunan sərginin “Avropa haqqında düşüncələr”
adlandırılması, digər məqamlarla yanaşı, vurğulanan nüansı ehtiva
edir.

## “Zamanın rəngləri”

Mədəniyyət və Turizm Nazirliyinin və “Qalereya 1969”un təşki-
latçılığı ilə yaradılmış bu sərgidə görkəmli Azərbaycan rəssamlarının
əsərləri nümayiş olunurdu.

Sərgi turistləri və ölkə vətəndaşlarını qalereyada saxlanılan qiy-
mətli əsərlərlə tanış edirdi. Azərbaycan təsviri sənət tarixində mühüm
yer tutan, tarix və memarlığımızın əks olunduğu bu sərgidə Azərbay-
can rəssamlığının tanınmış nümayəndələrindən M.Abdullayev, V.Sə-
mədova, T.Nərimanbəyov, B.Mirzəzadə, M.Rəhmanzadə, Abdulxalıq,
M.Tağıyev, O.Sadıqzadə, M.Cəfərov, C.Qasımov və başqalarının əsər-
ləri vardır. Hər biri böyük ustalıqla işlənmiş bu rəsmlərin orijinal bədii
və kompozisiya həlli, koloriti xüsusilə diqqət çəkirdi.

























# "Qəhvə rəngi"

Mədəniyyət və Turizm Nazirliyinin təşkilatçılığı, "Cofe planet" şirkətinin dəstəyi ilə Muzey Mərkəzinin Sərgi Qalereyasında keçirilən bu sərgi həm də nazirliyin böyük "art-layihə"si çərçivəsində müasir rəssamlığın inkişafına bir təkandır.

Sərginin ekspozisiyasına rəngkarlıq, qrafika, heykəltəraşlıq, batika, instalyasiya əsərləri və müəllif kuklalar daxildir.

Sərgidə 100-dən çox tematik rəsm əsərininin nümayişi ilə yanaşı tanınmış dizayner Nadya Tazıyevanın kofe rəngində geyim kolleksiyası da maraqla qarşılandı.

Bakıdakı "Art Villa" qalereyasında – Azərbaycanın Əməkdar rəssamı, YUNESKO Rəssamlar Federasiyasının üzvü, Beynəlxalq "Sülh səfiri" Əşrəf Heybətovun "Cənub şəhər və insanlar" adlı fərdi sərgisində Bakı və onun insanlarından bəhs edən 30-a yaxın əsəri nümayiş olundu.